# 15 İyun Milli Qurtuluş Günüdür



Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 109 (21.519)

15 iyun 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Tarixin çətin və məsuliyyətli anlarında xalqının mənafeyi naminə mühüm qərarlar qəbul edən siyasi liderlər təmsil etdikləri xalqları zamanın sərt sınaqlarından üzüağ çıxararaq milli liderə çevrilmişlər. Ümummilli lider Heydər Əliyev isə ötən əsrin 70-80-ci illərindən respublikada milli müstəqilliyə etibarlı zəmin yaradaraq xilaskarlıq missiyasını həyata keçirmişdir. Bu, Azərbaycanı Azərbaycana, öz xalqına qaytarmaq məramının başlanğıcı idi. Azərbaycan xalqı öz görkəmli dövlət xadiminin rəhbərliyi altında yüksək iradə nümayiş etdirməklə milli yaddaşını, mənəvi-əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial yaratmışdır.*

## Xilaskarlıq missiyası



Hər birimiz ***"Azərbaycan mənim qibləgahımdır"***, – deyən böyük şəxsiyyətin fəaliyyətində sonsuz fədakarlığın şahidi olmuşuq. Azərbaycanı kərpic-kərpic tikərək alınmaz qalaya çevirən ulu öndərimiz Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, onun milli konsepsiyasını yaratmışdır. Bu konsepsiya əsasında xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan layiq olduğu müstəqilliyə qovuşmuşdur.

Ümummilli lider 1982-ci ildən sonra – SSRİ-ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrlərdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, ermənilərin məkrli torpaq iddialarına qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz belə qətiyyətli və prinsipial mövqeyinə görə ulu öndərimiz 1987-ci ildə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa vermişdir.

Bununla da, Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başlanmışdır. Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi gündəliyə çıxarılmış, tarixi torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilmiş, Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədilmişdir. Lakin tarix sübut etdi ki, lideri olan xalq heç zaman darda qalmayıb. Ümummilli liderimiz Heydər Əliyev ali dövlət vəzifəsində olmasa da, Ona qarşı aparılan çirkin təbliğatlara baxmayaraq, həyatını təhlükə altında qoyaraq, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını elə imperiyanın paytaxtında – Moskva şəhərində kəskin ittiham etmişdi.

Bundan sonra dahi şəxsiyyətin Moskvada yaşaması mümkün olmamış və O, 1990-cı il iyulun 20-də Bakıya, sonra isə Naxçıvana qayıtmışdır. Xalqımızın böyük oğlunun Naxçıvana qayıdışı Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcına çevrilmiş, ümummilli liderin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm qərarlar qəbul olunmuş və Azərbaycanın müstəqillik yolunun əsası qoyulmuşdur.

1990-1993-cü illərdə dahi şəxsiyyət çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görülmüşdü. Dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, blokada şəraitində yaşayan Naxçıvanın işğaldan xilas edilməsi, burada çoxşaxəli iqtisadi islahatların aparılması dahi rəhbər Heydər Əliyevin qətiyyəti və təşəbbüsü nəticəsində mümkün olmuşdu.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ümummilli liderin rəhbərliyi ilə Naxçıvan inkişaf edir, cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımlar atılırdı. Azərbaycan xalqı belə cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını tələb edirdi. Belə bir şəraitdə – 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmışdır. Bununla da, ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyulmuş və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir.

Ulu öndərimiz Heydər Əliyev hakimiyyətə elə bir dövrdə qayıtmışdı ki, Azərbaycanda iqtisadi tənəzzül güclənmiş, siyasi böhran dərinləşmiş, cəbhədə hərbi uğursuzluqlar artmış, ölkə vətəndaş qarşıdurması, parçalanma həddinə çatmış, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində acınacaqlı vəziyyət yaranmışdı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ulu öndərin Naxçıvandan Bakıya qayıdışını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov belə xarakterizə edir: ***"Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına – AZƏRBAYCANI AZƏRBAYCANA QAYTARMAQ məramına xidmət edir".***

Ulu öndər Heydər Əliyev uğrunda illərlə mübarizə apardığı Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən qurtarmış, onun itirilməkdə olan müstəqilliyini qoruyub saxlamışdır. Beləliklə, dahi rəhbərimiz xilaskarlıq missiyasının növbəti mərhələsini həyata keçirmişdir. Sonralar ümummilli lider özü bu barədə deyirdi: ***"İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda, bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam".***

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Onun dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olmuşdur. Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan xalqımızın böyük oğlu idarəçilikdə səriştəsizliyə, qətiyyətsizliyə, bəsitliyə birdəfəlik son qoyaraq uğurlu daxili və xarici siyasət yeritmiş, dünyanın fövqəlgüc dövlətlərini Azərbaycanla hesablaşmaq məcburiyyətində qoymuşdur. Yeni dünyanın aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan, nəticədə, Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev respublikamızdan kənarda güclü diaspor və lobbi təşkilatlarının formalaşdırılmasına da xüsusi qayğı ilə yanaşmışdır. Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə xalqın milli kimliyinin təcəssümü olan maddi-mənəvi mədəniyyət abidələrinin, adət-ənənələrin, milli irsin qorunması və gənc nəslə aşılanması məsələlərinə xüsusi diqqət yetirmişdir. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarında vurğulayırdı ki, yeni dünya nizamının, qarşısıalınmaz qloballaşma prosesinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasını çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirmişdir. Məhz ulu öndər Heydər Əliyev dühasının Vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlər önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın milli genofondunu qorumuşdur. Bu dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, folkloruna həddən artıq bağlı olmaqla, onların olduğu kimi xalqa qaytarılması qayğısına qalmışdır.

Ötən dövrün təhlili bir daha təsdiqləyir ki, Azərbaycanın inkişafında 15 İyun Milli Qurtuluş Günündən başlanan yeni mərhələnin alternativi yoxdur. Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin etmişdir. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasi xəttin uğurlu davamının nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf edir, quruculuq obyektlərinin sayı günbəgün artır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əldə olunan uğurların Heydər Əliyev yolunun davamı olduğunu bildirərək demişdir: ***"Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır".***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız Azərbaycandakı böyük tərəqqinin daha geniş və parlaq müşahidə olunduğu məkandır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında nura boyanır. Bütün bunlar isə zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsidir. Bu siyasət yolumuza daim işıq saçır, bizi zəfərlərə aparır.

Azərbaycanın güclü, qüdrətli dövlətə çevrilməsi, regionların sürətlə müasirləşməsi, xalqın rifah halının günbəgün yaxşılaşdırılması Milli Qurtuluş Gününün bəhrələridir. Odur ki, qədirbilən xalqımız hər zaman Qurtuluş Gününü əziz tutur, bu günü böyük sevinc və fərəh hissi ilə qeyd edir. Çünki ulu öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtulmuş, Milli Qurtuluş yüksək intibaha açılan qapı kimi tariximizdə yeni bir səhifə açmışdır. Bu səhifə isə bu gün olduğu kimi, gələcəkdə də müstəqil Azərbaycanın əsas inkişaf modeli olacaqdır. Ölkə Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: ***"Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətini qəlbində yaşadır və yaşadacaqdır".***

**"Şərq qapısı"**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



***Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəldiyi 1993-cü il iyun ayının 15-i Azərbaycan tarixinə “Milli Qurtuluş Günü” kimi daxil olub. Həmin tarixdən etibarən dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas olub, ölkəmiz inkişaf, tərəqqi, yüksəliş yoluna qədəm qoyub.***

Bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində keçirilən Heydər Əliyev lektoriyasının növbəti məşğələsində səsləndirilib.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev “Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa” adlı məruzəsində bildirib ki, 1991-ci ildə dövlət müstəqilliyini elan edən Azərbaycan ağır problemlər burulğanına yuvarlanmışdı. Artıq 1993-cü ilin yazında ölkə daxilində vəziyyət böhran həddinə çatmışdı. Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuş, yüz minlərlə yurddaşımız öz doğma ocaqlarından qaçqın, köçkün vəziyyətinə düşmüşdü. Belə bir vaxtda xalq yenə düzgün yolu seçdi – dünya şöhrətli siyasi xadim Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi.

“1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev Bakıya gəldi. On minlərlə insan Bakı Hava Limanına axışaraq öz müdrik xilaskarını qarşıladı. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşdi: ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçildi”, – deyən İsmayıl Hacıyev vurğulayıb ki, 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində son dərəcə böyük işlər görüb. Bu gün hər birimiz ulu öndər Heydər Əliyevə borcluyuq. Çünki xaos, anarxiya baş alıb gedən və vətəndaş müharibəsinə sürüklənən Azərbaycan dövləti Onun uzaqgörən siyasəti nəticəsində ağır bəlalardan xilas olub.

Vurğulanıb ki, ulu öndərin milli maraqlara əsaslanan çoxşaxəli siyasət strategiyası bu gün Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmizin hərtərəfli və sürətli inkişafı, baş verən əsaslı dəyişikliklər, xarici siyasətimizdəki uğurlar, insanların rahatlığı naminə həyata keçirilən qlobal layihələr Azərbaycanın qüdrətli dövlət olduğunu təsdiq edir.

Sonra sənədli filmə baxış olub.

* * *

*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə “Milli Qurtuluş Gününün bəhrələri” mövzusunda tədbir keçirilib.*



Tədbirdə çıxış edən şuranın sədri Sucaxan Novruzov bildirib ki, ölkəmizdə günü-gündən genişlənən anarxiyanın, hərc-mərcliyin qarşısı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra alınıb, respublikamız düşdüyü bəlalardan xilas olub, inkişaf və tərəqqi yoluna çıxıb.

Xalqımızın dahi oğlu qısa müddətdə ölkədə baş verən vətəndaş qarşıdurmasını aradan qaldırıb, cəmiyyət həyatının bütün sahələrini əhatə edən uğurlu islahatlar həyata keçirilməsini təmin edib.

Ötən müddət ərzində respublikamız böyük inkişaf yolu keçib, ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin səyi nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafın bəhrələrini muxtar respublikamızda hər bir sahədə görmək mümkündür. Ümummilli liderin müəyyən etdiyi inkişaf və tərəqqi strategiyası, ulu öndərin ideyalarına sədaqət bu qədim diyarın tanınmaz dərəcədə dəyişməsinə səbəb olub.

Məruzə ətrafında şuranın əməkdaşlarından Xatirə İbrahimli, Vahid Muradov, Gözəl Qənbərova və Taliyə Bağırova çıxış ediblər.

***“Naxçıvan” Universitetində də Heydər Əliyev lektoriyasının “Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa” mövzusunda növbəti məşğələsi keçirilib.***



Məşğələni giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq ölkəmizin tarixində çox mühüm hadisə olan və Azərbaycanın müstəqilliyinin qorunmasını təmin edən Milli Qurtuluş Günü barədə ətraflı məlumat verib, ulu öndərimizin ölkəmizdə ictimai-siyasi sabitliyin yaradılması, xalqın birliyinə nail olunması, iqtisadiyyatımızın dinamik inkişaf yoluna çıxarılması istiqamətində genişmiqyaslı və qlobal əhəmiyyət daşıyan fəaliyyətindən danışıb.

Rektor ümummilli liderin müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını yaradan bir şəxsiyyət kimi bugünkü və gələcək nəsillər tərəfindən həmişə minnətdarlıq hissi və dərin ehtiramla xatırlanacağını vurğulayaraq deyib ki, Azərbaycanın yeni tarixinin bütöv bir mərhələsi bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Məşğələdə tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev “Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa” mövzusunda məruzə edib. Məruzədə qeyd olunub ki, Milli Qurtuluşdan ötən 23 il ərzində Azərbaycan yüksək inkişaf yolu keçib, bütün sahələrdə böyük uğurlar qazanılıb, ölkəmiz dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Bu yüksəliş, inkişaf və tərəqqi müstəqil Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Milli Qurtuluş Gününün bəhrələridir. 1993-cü ilin 15 iyun günü böyük xilaskarlıq missiyasının başlanğıcı, Milli Qurtuluş Günü kimi Azərbaycan xalqının tarixinə yazılıb. Həmin gün xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər bütün qüvvəsini Vətənimizi üzləşdiyi bəlalardan, xalqımızı çətin günlərdən xilas etməyə yönəldib.

Məruzəçi bildirib ki, Azərbaycana ikinci rəhbərliyi dövründə ümummilli liderimiz neçə-neçə qərinəyə sığmayan böyük işlər görüb, ölkə həyatının bütün sahələrində əsaslı dönüşə nail olunub, iqtisadi inkişaf təmin edilib. Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə uğurlar qazanılır. İnkişaf və intibah dövrünü yaşayan Azərbaycan dünyanın diqqət mərkəzinə çevrilib.

Diqqətə çatdırılıb ki, blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası da bu gün sürətlə inkişaf edir, şəhər, qəsəbə və kəndlər yenidən qurulur. Qədim Naxçıvanın müdafiə qabiliyyəti gücləndirilib, makroiqtisadi sabitlik bərqərar olunub, iqtisadi inkişaf təmin edilib, əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılıb. Bütün bunlar ulu öndər Heydər Əliyev yoluna sədaqətin və Milli Qurtuluşun bəhrələridir.

Tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv əlaqə yaradılıb

***15 İyun – Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv əlaqə yaradılıb, “Qurtuluş Günü mənim həyatımda” mövzusunda dərs keçilib.***





*Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb*



*Şərur şəhər 1 nömrəli tam orta məktəb*



*Şahbuz rayon Daylaqlı kənd tam orta məktəbi*

200 ümumtəhsil, orta ixtisas və peşə məktəblərinin, Heydər Əliyev adına Hərbi Liseyin qoşulduğu dərsdə Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev bildirib ki, tarixin ən sərt dolanbaclarından, çətin sınaqlarından keçməklə əxz etdiyi milli dövlətçilik ənənələrini məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanmış xalqımız həm də müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb.

Bildirilib ki, xalqımız ulu öndər Heydər Əliyevin adı ilə bağlı əlamətdar hadisənin – Milli Qurtuluş Gününün 23-cü ildönümünü böyük təntənə ilə qeyd edir. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan 1993-cü ilin iyun ayına qədərki müddətdə böhranlar, xaos və çaxnaşmalarla qarşılaşmışdı. AXC-Müsavat iqtidarının hakimiyyəti dövründə idarəetmədə müşayiət olunan kobud səhvlər, yaranmış ağır sosial-iqtisadi gərginlik və hakimiyyət davası ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu. Cəbhədəki məğlubiyyətlər, torpaqların itirilməsi yeni-yeni faciələrin baş verməsinə səbəb olurdu. Gəncədə 1993-cü ilin iyun ayında baş verən hadisələr vəziyyəti daha da ağırlaşdırmışdı.

Məhz belə bir vaxtda, xalqın çətin günündə onu bu bəlalardan xilas edə biləcək tarixi bir şəxsiyyətin, müdrik siyasi xadimin hakimiyyətə gəlişi labüd idi. Vəziyyətdən çıxış arayan Azərbaycan xalqı haqlı olaraq nicat yolunu ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasında görürdü. Xalqının çağırışına biganə qala bilməyən ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı insanların qəlbində artıq sönmüş müstəqillik arzularını yenidən alovlandırdı.

Vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın istək və tələbi ilə 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra – iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi xalqımızın ulu öndərin xilaskarlıq missiyasına olan ümid və inamının göstəricisi idi. Onun xilaskar missiyası ilə gəlişi dövlətçilik tariximizin şanlı səhifəsinə daha bir şanlı gün yazdı. 15 iyun tarixə “Milli Qurtuluş Günü” kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı gününü 1997-ci il 27 iyun tarixli qərarı ilə rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Vurğulanıb ki, ötən dövr ərzində ölkəmizin bütün sahələrdə nail olduğu inkişafı Naxçıvan Muxtar Respublikasının timsalında bütün çalarları ilə görmək olar. Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçən qədim diyarımızda cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların, dövlət proqramlarının həyata keçirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası bu gün ən müasir məmləkətə çevrilib. Bu gün həyatımızın elə bir sahəsi yoxdur ki, orada Milli Qurtuluşun bəhrələri görünməsin.

Məktəblər, səhiyyə ocaqları, mədəniyyət müəssisələri üçün müasir layihələr əsasında yeni binalar inşa olunur, onların maddi-texniki bazaları gücləndirilir. Yeni istehsal və emal müəssisələrinin, iş yerlərinin yaradılması, insanların məşğulluğunun təmin olunması son 23 ildə cahanşümul uğurlar əldə edilməsinə imkan verib.

Bildirilib ki, həyata keçirilən tədbirlər ən ucqar dağ və sərhəd kəndlərini də ağuşuna alıb. Bununla da, belə ünvanlarda yaşayan insanlar Milli Qurtuluşun bəhrələrini öz həyatlarında görür, ulu öndər Heydər Əliyevin bu gün də uğurla davam etdirilən dövlətçilik siyasətini, qurucluq missiyasını müdafiə edir, ümummilli liderin yoluna sədaqət göstərirlər. Çünki bugünkü firavan həyatımızın təməli məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulub.

Sonra Ramil Orucəliyev şagird və tələbələrə Heydər Əliyev Muzeyi barədə ətraflı məlumat verib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına və tədrisin səmərəliliyinin daha da artırılmasına hərtərəfli şərait yaradıb.

Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada distant tədrisin tətbiqi keyfiyyətcə özünün yeni mərhələsinə qədəm qoyub. Xüsusilə muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin yaradılması şagird və tələbələrin həmin muzeylərlə tanışlığının təmin olunmasına öz töhfəsini verir.

**Muxtar MƏMMƏDOV**



# Heydərabad qəsəbəsi ulu öndərin adına layiq qurulub

***Sədərək rayonunun Heydərabad qəsəbəsi ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan ilk yaşayış məntəqəsidir. İstər əhali, istərsə də ərazi baxımından muxtar respublikamızın ən kiçik rayon mərkəzi olan bu qəsəbəni digər bölgələrimizdən fərqləndirən cəhətlər, xüsusiyyətlər az deyil. Bunlar, ilk növbədə, onun yerləşdiyi coğrafi mövqe ilə bağlıdır. Əvvəla, bura təkcə Naxçıvanın yox, bütöv məmləkətimizin ən ucqarda yerləşən torpaqlarından biridir: mənfur ermənilərlə həmsərhəddir.***

Ümummilli liderimiz Heydər Əliyev 1978-ci il oktyabrın 15-də respublika rəhbəri kimi Naxçıvana səfər edərkən Sədərək kəndi ilə Ermənistan arasındakı boş ərazilərdə nümunəvi yaşayış qəsəbəsinin salınması barədə tapşırıq vermişdi. 1980-ci ilin əvvəlində salınmasına başlanan indiki Heydərabad qəsəbəsi həmin il 75 ailənin yurd yerinə, ocağına çevrilmişdi. Sonralar bu hadisəni xatırlayan ulu öndər deyirdi: ***"Mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bir qəsəbənin salınması haqqında tapşırıq verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, "bu, bizimdir", "o bizimdir", – deyirdilər".***

Heydərabad qəsəbəsi ötən əsrin 90-cı illərinin əvvəllərində erməni təcavüzü nəticəsində tamamilə dağıdılaraq yaşayış üçün yararsız hala salındı. 1997-1998-ci illərdə burada tikinti-quruculuq, abadlıq işlərinə başlanıldı, həmin evlər bərpa olundu və yerli əhalinin təşəbbüsü əsasında ulu öndər Heydər Əliyevin 75 illik yubileyi şərəfinə yaşayış məskəninə Heydərabad adı verildi. Ümumiyyətlə, son 21 il ərzində qəsəbədə aparılan quruculuq işləri nəticəsində bura yeni görkəm alıb, əhalinin yaxşı yaşaması və işləməsi üçün hərtərəfli şərait yaradılıb. Ümummilli lider öz çıxışlarının birində Naxçıvana döndükdən sonra ilk gəldiyi yerin Sədərək olduğunu belə qeyd edib: ***"Mən 1990-cı ildə Naxçıvana gələndə yaşayış məntəqələrinə ilk gedişim Sədərək rayonu oldu. Yəqin ki, onu da xatırlayırsınız. Mən Naxçıvana gələndə 3-4 gün sonra Sədərəyə gəldim. Nə üçün Sədərəyə? Çünki bu bizim həm ucqar yaşayış məntəqəmizdir, rayonumuzdur, həm də ki, insanlar burada ermənilərin hücumlarından, onların atəşlərindən çox əziyyət çəkmişdilər".***

Bu gün Heydərabad qəsəbəsi ulu öndərin adına layiq şəkildə qurulub. Qəsəbə qorunur və günü-gündən inkişaf edir. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Yurda bağlılığı, onu daha gözəl görmək arzularının çin olmasını, muxtar respublika sakinlərinin yaxşı yaşamasının prioritet vəzifəyə çevrilməsinin nümunələrini qəsəbədə bütün çalarları ilə görmək mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu qədim yerin inkişafına davamlı qayğısının ifadəsi kimi imzaladığı "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 15 mart 2000-ci il tarixli Sərəncamı bölgənin yeni müstəvidə tərəqqisinə stimul oldu. Bu sərəncamdan sonra çox keçmədi ki, qəsəbə quruculuq meydanına çevrildi. Bununla da, insanların sabaha olan inamı bir daha yüksəldi. Sərəncamın icrası istiqamətində görülən işlər, həyata keçirilən digər məqsədyönlü tədbirlər sərhəd qalasının görkəmini tamamilə dəyişdi.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev Sədərək rayonuna xüsusi diqqət və qayğı göstərir. Qeyd edək ki, Prezident İlham Əliyev 2010-cu ildə Sədərək rayonunda yeni salınan Heydərabad qəsəbəsinin açılışında iştirak edib. Çıxışlarının birində dövlətimizin başçısı deyib: ***"...Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. ...Sədərəklilər, bütün naxçıvanlılar Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuşlar, qan tökmüşlər. Biz o illəri yaxşı xatırlayırıq və Azərbaycan torpaqları işğal altına düşəndən sonra erməni qəsbkarları, erməni millətçiləri gözlərini Naxçıvana da dikmişdilər, Naxçıvanı da işğal etməyə çalışırdılar. O vaxt ancaq naxçıvanlıların iradəsi və ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində naxçıvanlılar Naxçıvanı qorudular. Düşmənə imkan vermədilər ki, buraya soxulsunlar, düşməni yerinə oturtdular".***

İllər öncəki Heydərabad və bugünkü Heydərabad. Geridə qoyduğumuz illər qəsəbəyə nə bəxş edib? Bu gün necə yaşayır Heydərabad? İnsanları gün-güzəranlarını necə qurublar?

Heydərabadlılar suallarımı belə cavablandırdılar.

*Teymur Quliyev – Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Sədərək Rayon Təşkilatının sədri:*

– Əvvəlcə onu deyim ki, ulu öndərin adını daşıyan bir məkanda yaşamaq mənim üçün şərəfdir. Keçən əsrin 70-ci illərində ümummilli liderin təşəbbüsü ilə bu qəsəbənin yaradılması böyük əks-səda doğurdu. Bu xəbər ətrafında geniş müzakirələr aparıldı. Niyə məhz burada? Uzaqgörən siyasətçinin ermənilərin torpaq iddialarının qarşısını almaq üçün bu qərarı niyə verdiyini illər sonra anladıq. Mənfur ermənilər tərəfindən 1990-1993-cü illərdə Sədərəyə atılan top mərmiləri 500-dən artıq yaşayış evini, o cümlədən məktəb, xəstəxana, mədəniyyət evi, inzibati binaları dağıtdı. Ancaq ulu öndərin adını daşıyan bu qəsəbə qorundu və saxlandı. Ermənilərin bu qəsəbəni ələ keçirmək arzuları gözlərində qaldı. Güllə səsindən qulaq tutulan, həyət-bacaları, evləri dağılan Sədərəkdə 1993-cü ilin avqust ayında axırıncı döyüşdə düşmənlərimiz Naxçıvanın Qeyrət qalasını qoruyan qəhrəman, qeyrətli oğullarımıza bata bilməyəcəklərini yəqin edərək yerlərində oturdular. Xalqımızın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev digər bölgələrimiz kimi, Sədərəyin, o cümlədən tamamilə dağılmış Heydərabad qəsəbəsinin yenidən qurulmasına ardıcıl qayğı göstərdi. Son illərdə həyata keçirilən tədbirlər Heydərabadı gözəl, nümunəvi qəsəbəyə çevirib.

*Asya İmamverdiyeva – Sədərək kənd tam orta məktəbinin gənc müəllimi:*

– Bir gənc kimi mən də qürur duyuram ki, ulu öndərin adını daşıyan bir bölgədə yaşayıram. Burada istifadəyə verilən inzibati binalar, sosial obyektlər Heydərabad qəsəbəsinə xüsusi yaraşıq verir. Körpə balalarımızın təlim-tərbiyə almaları üçün tikilən gözəl, yaraşıqlı uşaq bağçasının binası qəsəbənin simasını daha da gözəlləşdirib. Heydərabadda, bütövlükdə Sədərək rayonunda qaz, işıq problemləri yoxdur. Bu gün rayonumuza, o cümlədən Heydərabad qəsəbəsinə qonaq gələnlər onun gözəlliyinə, təmiz və səliqəli saxlanılmasına olan heyranlıqlarını gizlətmirlər. Heydərabadın küçə, park və bağları tamamilə yenidən qurulub. Hara baxırsan yaşıllıqdır, gül-çiçəkdir. Qəsəbə sakinləri, idarə, müəssisə və təşkilatların işçiləri hər şənbə günü iməciliyə çıxır, təmizlik, abadlıq işləri ilə məşğul olurlar. Bu, artıq bir ənənə şəklini alıb.

Bu gün Heydərabad qəsəbəsi igid hərbçilərimizin hesabına göz bəbəyi kimi qorunur. Həmin hərbçilərdən biri – Hüseyn Abbasovla həmsöhbət oldum. Buradakı "N" hərbi hissədə qulluq etdiyi üçün qəsəbədə yaşayır. Bizimlə söhbətində bildirdi ki, peşəsi ilə əlaqədar Azərbaycanın bir çox bölgəsində yaşayıb. Çox yerlər görüb. Amma Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının ən ucqar nöqtəsində belə yaraşıqlı, gözəl, təmiz, abad bir qəsəbədə xidmət etdiyi üçün fəxr edir. Və əlavə edir:

– Axşamlar yaxınlıqda yerləşən parkda uşaqlarla gəzintiyə çıxıram. Hər tərəf al-əlvan, gül-çiçəkli, işıqlıdır. İş gününün sonunda bu cür istirahət etmək bütün yorğunluğumuzu çıxarır. İdmanı çox sevirəm. Xüsusən də futbol oynamağı. Heydərabad qəsəbəsində – düşmənin bir addımlığında yerləşən mini-futbol meydançasında vaxt tapdıqca qəsəbə, kənd sakinləri ilə futbol oynayırıq. Çox isti, səmimi münasibət saxlayırıq. Düşmənə gözdağı olan Heydərabad qəsəbəsində yanan bu çıraqban işıqlar, yüksələn sevinc səslərinə düşmən müvəqqəti məskunlaşdığı "yuvasından" həsrətlə baxır.

*Bəli, sədərəklilər bu xoş günlər üçün ümummilli liderimiz Heydər Əliyevə borcludurlar. Bildirdilər ki, ulu öndərimiz Sədərəyin ən ağır illərində həm rayonu, həm də sədərəkliləri qoruyub, onlara mənəvi dayaq olub. Ulu öndərimizin sərhəd bölgəsinin ağır illərində dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qoruyub. Bu gündən sabaha ümidləri olmayan sədərəklilər də dahi şəxsiyyətin ətrafında sıx birləşiblər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanıblar. Bu gün firavan həyat tərzi məhz Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub. Bu işıq isə indi daha da gur parlayır və heç zaman sönməyəcək.*

**Sara ƏZİMOVA**

***Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 20 fevral 2016-cı il tarixdə elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının andiçmə mərasimi keçirilib.***

# Dövlət qulluqçularının andiçmə mərasimi keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli tədbir iştirakçılarını Milli Qurtuluş Günü və dövlət qulluğuna qəbul olunmaları münasibətilə təbrik edib.

Muxtar respublikada dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən danışan İsmayıl Qəribli deyib ki, komissiya tərəfindən indiyədək keçirilmiş 10 müsabiqədə 647 nəfər dövlət qulluğu vəzifələrinə təyin olunub.

Sonra müsabiqəni uğurla başa vurmuş namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Xatırladaq ki, komissiya tərəfindən müsabiqəyə 36 dövlət orqanı üzrə 294 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 634 nəfər sənəd təqdim etmişdi. Test imtahanları mərhələsində 563 namizəd iştirak etmiş, keçid balını toplaya bilmiş 141 namizəddən 124 nəfəri müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim etmişdi. Müsahibə mərhələsində iştirak edən 124 namizəddən 84-ü müvəffəqiyyət qazanmış, onlardan 67-si iddia etdikləri dövlət orqanları üzrə vakant vəzifələrə təyin olunmuşdur.

# "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin ümumi yığıncağı olub



***İyunun 14-də "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin ümumi yığıncağı keçirilib.***

Birliyin üzvü Rasim Ələkbərovun sədrliyi ilə keçirilən yığıncaqda birliyin nizamnaməsinə dəyişikliklər edilməsi, idarə heyətinin, sədrinin və sədr müavininin seçilməsi məsələləri müzakirə olunub. 97 nəfər nümayəndənin iştirak etdiyi yığıncaqda birliyin nizamnaməsinə dəyişikliklər edilib, Vaqif Məmmədov "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri, Fikrət Məmmədov isə müavini seçilib.

Sonra birliyin ümumi yığıncağının qərarı qəbul olunub.

Birliyin yeni sədri Vaqif Məmmədov çıxış edərək ona göstərilən etimadı doğrultmaq, arıçılığı daha da inkişaf etdirmək üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış edib. Bildirilib ki, son illər muxtar respublikada arıçılıq dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahənin inkişafına göstərdiyi qayğının nəticəsidir ki, arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə artmaqdadır. Diqqətə çatdırılıb ki, muxtar respublikada əhalinin etibarlı ərzaq təminatına dair dövlət proqramında arıçılığın inkişaf etdirilməsi üzrə tədbirlərin nəzərdə tutulması, bu sahədə damazlıq işinin yaxşılaşdırılması, yerli arı cinslərinin və populyasiyalarının qorunub saxlanılması, yeni cinslərin yetişdirilməsi üçün əlverişli mühitin formalaşdırılması, son nəticə olaraq, arıçılıq məhsullarının istehsal həcminin artmasına səbəb olub. Arı ailələrinin sayının artırılması, eləcə də məhsuldarlığının yüksəldilməsi tədbirlərinə dəstək məqsədilə son beş il ərzində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinə 2 milyon 313 min manat həcmində kreditlərin verilməsi təmin olunub. Bütövlükdə, 2000-2015-ci illər ərzində dövlət maliyyə dəstəyi ilə 103 arıçılıq layihəsi həyata keçirilib, Sahibkarlığa Kömək Fondunun güzəştli kreditləri hesabına 6 mindən artıq arı ailəsi alınıb.

Qeyd olunub ki, muxtar respublikada aqrar islahatların həyata keçirilməsindən əvvəl ictimai və fərdi təsərrüfatlarda cəmi 6045 arı ailəsi mövcud olubsa, göstərilən dövlət qayğısının nəticəsidir ki, cari ilin əvvəlinə arı ailələrinin sayı 11,6 dəfə artaraq 70 min 396-ya çatdırılıb. Hazırda muxtar respublikada 4800-dən çox sahibkar arıçılıqla məşğul olur ki, onlardan da 748-nin 20-350 arası arı ailəsi vardır. Bildirilib ki, muxtar respublikada arı ailələrinin miqdarı ilə yanaşı, istehsal olunan balın həcmində də artım müşahidə olunub. Əgər 2003-cü ildə 154,5 ton bal istehsal olunubsa, ötən il bu göstərici 9 dəfə artaraq 1396 ton təşkil edib. Hazırda muxtar respublikada balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi fəaliyyət göstərir.

Arı xəstəliklərinin müalicəsi üçün hər il arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinə pulsuz dərman preparatlarının verilməsi, istehsal etdikləri məhsulları satmaq üçün hər həftənin şənbə-bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil olunan yarmarkalarda şərait yaradılması arıçılığın inkişafına göstərilən dövlət qayğısının daha bir nümunəsidir.

Rəfael Babayev qeyd edib ki, Ali Məclis Sədrinin tapşırıqlarına uyğun olaraq arıçılığın problemləri və inkişaf perspektivləri ilə bağlı hər il muxtar respublikada beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfransların keçirilməsi bu sahədə özünü doğrultmuş təcrübənin mənimsənilməsinə, arıçılar arasında təcrübə mübadiləsinin aparılmasına imkan yaradıb.

Vurğulanıb ki, 2008-ci ilin aprel ayında təsis olunmuş "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyi arıçılıq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək, arıçıların rastlaşdıqları problemləri ümumiləşdirərək onların həllinə nail olmaq məqsədilə yaradılsa da, ötən müddət ərzində birlik tərəfindən arıçılığın inkişafı ilə bağlı, demək olar ki, heç bir iş görülməyib. Ümid edirik ki, birliyin yeni rəhbərliyinin səmərəli fəaliyyəti nəticəsində bu qədim və çox əhəmiyyətli təsərrüfat sahəsinə göstərilən dövlət qayğısından bəhrələnərək arıçılıq muxtar respublikada daha yüksək inkişaf mərhələsinə qədəm qoyacaqdır.

**Əli CABBAROV**

# Milli Qurtuluş Gününün bəhrələri

**Ulu öndər Heydər ƏLİYEV:** *İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin.*



*Naxçıvan şəhəri*



*Naxçıvan Muxtar Respublika Xəstəxanası*



*Naxçıvan şəhərində yeni yaşayış kompleksi*

Ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin gələcək inkişafının, misli görünməmiş uğurların əsasını qoyduğu kimi, onun siyasi kursunun Naxçıvanda sədaqətlə davam etdirilməsi nəticəsində doğma diyarımızda möhtəşəm inkişaf salnaməsi tarixə qızıl hərflərlə yazılıb. Ötən 20 ildə qarşıya qoyulan bütün vəzifələrin icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, lazımi islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qoruyub saxlayır. Muxtar respublikanın iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət qədim diyarımızın sürətli yüksəlişinə rəvac verib.

Faktlar da bunu təsdiq edir. Muxtar respublikada 2015-ci ildə ümumi inkişafı əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 56,4 dəfə artaraq 2 milyard 467 milyon 422 min 400 manat təşkil edib. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 42,3 dəfə artaraq 5581 manatı ötüb. Bu dövrdə sənaye məhsulunun həcmi 100,4 dəfə, əsas kapitala yönəldilən investisiyalar 312 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 10,4 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 111,6 dəfə, pərakəndə əmtəə dövriyyəsi 35 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 51 dəfə, ixracın həcmi 213,9 dəfə, əhalinin gəlirləri 57,2 dəfə, hər bir nəfərə düşən gəlirlər 43,3 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 25,1 dəfə artıb.

1996-cı ildən 1 yanvar 2016-cı ilədək olan dövr ərzində muxtar respublikada 536 inzibati bina, 170 nasos stansiyası, 403 subartezian quyusu, 162 körpü, 356 elm və təhsil müəssisəsi, 421 mədəniyyət müəssisəsi, 253 səhiyyə müəssisəsi, 44 idman obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Əgər 1995-ci ildə muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 56-ya bərabər olmuşdusa, hazırda bu göstərici 8 dəfə artaraq 441-ə çatıb.

1996-cı ildən 1 yanvar 2016-cı il tarixədək muxtar respublikada 85 min 861 yeni iş yeri açılıb ki, bunun da 59 min 90-ı və ya 68,8 faizi daimi iş yerləridir. Əgər 1995-ci ilin sonuna məşğulluq xidmətlərində rəsmi işsiz statusu alanların sayı 5211 nəfər təşkil edirdisə, hazırda bu göstərici sıfır səviyyəsindədir.

Ətraf mühitin qorunması, təbii ehtiyatların mühafizəsi istiqamətində də mühüm işlər görülüb, yaşıllıqların artırılması diqqət mərkəzində saxlanılıb. Bu dövrdə 16 min 541 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 10 milyona yaxın ağac və bəzək kolları əkilib. Hazırda muxtar respublikanın ümumi ərazisinin 12 faizini yaşıllıqlar əhatə edir. 1990-cı ilin əvvəllərində isə bu göstərici 0,6 faiz həddində idi.

Dövlət başçısının təsdiq etdiyi Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərinin və kənd yaşayış məntəqələrinin də inkişafına səbəb olub. Ötən dövr ərzində muxtar respublikamızda 4 qəsəbə mərkəzi, 125 kənd mərkəzi istifadəyə verilib.

Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranıb ki, bu da blokada şəraitində olan muxtar respublika üçün böyük göstəricidir.

Naxçıvan üçün digər mühüm bir məsələ enerji təhlükəsizliyinin təmin olunmasıdır. Dövlət başçısının diqqət və qayğısı, naxçıvanlıların əzmkarlığı sayəsində 14 illik fasilədən sonra 2005-ci ildə muxtar respublikaya təbii qazın nəqli bərpa edilib. Bu gün Naxçıvanın elə bir yaşayış məntəqəsi yoxdur ki, ora təbii qazla tam təmin edilməsin. Əgər sovetlər dövründə muxtar respublika üzrə cəmi 33 min abonent təbii qazla təmin olunurdusa, bu gün artıq həmin rəqəm 80 mini ötüb.

Son illər muxtar respublikada 7 yeni elektrik stansiyası istifadəyə verilib. Ən önəmlisi budur ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bu da dünyada çox nadir hallarda müşahidə edilən bir haldır.

Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir. Bu gün çiçəklənən, intibaha qovuşan Naxçıvan məhz ulu öndərin arzularındakı əzəmətli diyardır.



*"Naxçıvan" Universiteti*



*Naxçıvan şəhərində uşaq musiqi məktəbi*



*Babək rayonunun Kərimbəyli kəndi*



*Naxçıvan Sənaye Kompleksi*



*Arpaçay Su Elektrik Stansiyası*


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 468